HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

15 avqust 2017-cı il
№015 (53)

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / “იენი იოლი” საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## TÜRKİYƏDƏ BAKI-TBİLİSİ-QARS DƏMİRYOLU ÜÇÜN LOGİSTİK MƏRKƏZ TİKİLİR



Bakı-Tbilisi-Qars dəmiryol xəttində logistik mərkəz tikiləcək. Logistik mərkəz Türkiyənin Qars şəhərində inşa ediləcək. Tikiləcək logistik mərkəzin 2018-ci ilin oktyabrında istifadəyə verilməsi nəzərdə tutulur.

Türkiyə mediası xəbər verir ki, bu barədə Türkiyənin nəqliyyat, dənizçilik və kommunikasiya nazirliyi məlumat verib.

Layihənin dəyəri 94,3 milyon türk lirəsi və ya 26,68 milyon dollar təşkil edəcək.

Logistik mərkəzin tikintisi üçün artıq 300 min kvadratmetr ərazi ayrılıb. Logistik mərkəz istifadəyə verildikdən sonra ildə buradan 412 min ton yükün daşınması nəzərdə tutulur.

Bununla yanaşı, logistik mərkəzə 16 km uzunluğunda yeni dəmiryol xəttinin çəkilməsi də planlaşdırılır. Bu dəmiryol xətti Qars-Ərzurum dəmiryol xəttini birləşdirəcək.

“Azərbaycan Dəmir Yolları”nın rəhbəri Cavid Qurbanovun 19 iyul 2017-ci ildə Bakı-Tiflis-Qars dəmiryol xəttinin Türkiyə hissəsindəki tikinti işlərinin gedişi ilə tanış olmaq məqsədi ilə etdiyi səfər çərçivəsində Qarsda logistik mərkəzin tikintisi ilə bağlı saziş imzalanıb.

## GÜRCÜSTANIN DİNİ MƏSƏLƏLƏR ÜZRƏ DÖVLƏT AGENTLİYİNİN SƏDRİ ZAZA VAŞAKMADZE II KOSALI İSLAM MƏDRƏSƏSİNDƏ OLUB



Avqustun 7-də Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadze II Kosalı İslam mədrəsəsini ziyarət edib. Zaza Vaşakmadzeni bu səfərdə Bütün Gürcüstan Müsəlmanlar İdarəsinin Şərqi Gürcüstan müftisi hacı Yasin Əliyev və Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının sədri Musa Haciyev müşayiət ediblər.

Məscidi və mədrəsəni gəzərək mədrəsədəki təhsil və gündəlik iş sistem ilə maraqlanan Zaza Vaşakmadzeyə ətraflı məlimat verilib.

Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadze mədrəsənin bölgədəki fəaliyyətlini və təhsil sahəsindəki uğurlarını yüksək qiymətləndirib, mədrəsədəki iş sistemdən məmnun qaldığını bildirib.

## GEORGİ KVİRİKAŞVİLİNİN DAVOS MERİ İLƏ GÖRÜŞÜ OLUB



Gürcüstanın baş naziri Georgi Kvirikaşvili Gürcüstanın müalicə-sağlamlıq kurortlarının böyük potensiala malik olduğunu və gələcəkdə öz idman ənənələri, yüksək səviyyəli tibbi və iqtisadi forumları olan Davosdan yeddi dəfə çox qonaq qəbul edə biləcəyini düşünür.

Avqustun 11-də Georgi Kvirikaşvili və Davosun meri Tarsiziy Kevizel Tbilisi yaxınlığında, Qocoridə “Bioli” müalicə-sağlamlıq kurortuna baş çəkiblər.

Gürcüstan və İsveçrə əməkdaşlığının və ikitərəfli münasibətlərin inkişafı Kvirikaşvili və Davos merinin görüşündə əsas müzakirə mövzusu olub.

Kvirikaşvili qeyd edib ki, Gürcüstan Davosda keçirilən Ümumdünya İqtisadi Forumunda hər il iştirak edir, habelə İsveçrə ilə dağlıq regionların inkişafı sahəsində əməkdaşlıq edir. Baş nazirin sözlərinə görə, İsveçrə ilə əməkdaşlığın davam etdirilməsi Gürcüstanda alternativ tibbin inkişafında mühüm rol oynayacaq.

Görüşdə Kvirikaşvili bildirib ki, əgər Davos ildə 2 milyon turist qəbul edə bilirsə, onda Gürcüstan ildə 10-15 milyon turist qəbul edə bilər.

Baş nazir bu il Gürcüstana gələn turistlərin 7 milyon nəfərə çatacağına ümid etdiyini vurğulayıb. Kvirikaşvili turistlərin sayının 15 milyona çatmasının Gürcüstanın iqtisadi çiçəklənməsini təmin edəcəyini bəyan edib.

“Bioli” tibbi-kurortunun yaradıcısı biznesmen Tamaz Mçedlidzedir. Layihənin gerçəkləşdirilməsinə 14 milyon dollar sərmayə qoyulub.

## OSMAN ÇALIŞKAN: İŞÇİLƏRİN İXTİSASININ AŞAĞI OLMASI SƏRMAYƏÇİLƏR ÜÇÜN ƏSAS PROBLEMDİR

Beynəlxalq Sərmayəçilər Assosiasiyasının başçısı Osman Çalışkan bildirib ki, Gürcüstanda biznes azaddır, lakin sərmayəçilərin kadrların ixtisaslaşması ilə əlaqədar ciddi problemləri var.

O, qeyd edib ki, Gürcüstanda işləyən xarici şirkətlərin xüsusi çətinlikləri yoxdur, məsələn, dövlət qurumları ilə belə bir problem yoxdur, əgər hər hansı problem meydana çıxarsa, o, yerli və mərkəzi hakimiyyətlə birlikdə həll edilir.

Əsas problem kadrların zəif ixtisaslaşması ilə bağlıdır. Bu problem illərdir ki, mövcuddur və Assosiasiya hökumətlə birlikdə onun həll olunması yollarını axtarır.



Çalışkan vurğulayıb: “Gərəkli ixtisasların yoxluğu əsas problemdir. Sərmayəçi gələndə ilk növbədə bununla maraqlanır. Gürcüstanda işçi qüvvəsi çoxdur, lakin ixtisaslıların sayı azdır, buna görə də, sərmayəçi kadrların hazırlanmasına vaxt və pul xərcləməli olur, buna isə ən azı üç ay vaxt lazımdır. Biz bu problemi həll etməyə çalışırıq, lakin buna xeyli vaxt və əlbəttə, hakimiyyət tərəfindən dəstək gərəkdir”.

Onun sözlərinə görə, indiki mərhələdə söhbət toxuculuq sənayesi və turizm üçün kadrların yenidən hazırlanmasından gedir.

## ALMANİYA KEÇMİŞ GÜRCÜSTANLI HƏRBİ ƏSİRLƏRƏ KOMPENSASİYA ÖDƏYƏCƏK

Almaniyanın Federal Maliyyə Nazirliyi İkinci Dünya müharibəsində əsir düşmüş gürcüstanlı əsgərlərə 2500 avro məbləğində birdəfəlik kompensasiya ödəyəcək.

2015-ci ildə Almaniya hökuməti dörd min keçmiş sovet hərbi əsirinə 10 milyon avro məbləğində kompensasiya ödəmək qərarı qəbul etmişdi. Ödəniş alman düşərgələrində əsir olmuş Gürcüstan vətəndaşları üçün də nəzərdə tutulub.

Almaniyanın İctimai Əmlak və Mərkəzi Xidmət Məsələləri üzrə Federal Nazirliyi hələ cari ilin martında kompensasiyanın ayırılmasına dair Gürcüstanın Səhiyyəyə Nazirliyinə müraciət edib.

Kompensasiyanın alınması üçün 2017-ci il sentyabrın 30-dək müraciət etmək olar. Müraciəti zərər çəkmişin özü və ya onun səllahiyyətli adamı edə bilər, üçüncü şəxsə və ya varislik üzrə hüquq verilmir.

Əsirlikdə olmuş və indiyədək yaşayan Gürcüstan vətəndaşlarının sayı bəlli deyil.

İkinci Dünya müharibəsi cəbhələrinə 700 min Gürcüstan vətəndaşı getmiş, onlardan yalnız 300 mini evinə qayıtmışdı. Gürcüstan Veteranlar İttifaqının məlumatına görə, hazırda ölkədə 948 nəfər İkinci Dünya müharibəsi veteranı yaşayır.

SUYA AND İÇƏNLƏRİN ÇIXARDIĞI OYUNLAR 2

ACLIQ HAQQINDA TEZ-TEZ EŞİTDİYİMİZ SUALLAR 3

ABŞ-RUSİYA MÜNASİBƏTLƏRİNİN YENİ ÜFÜQLƏRİ 4

BİR MƏRASİMLƏ İLGİLİ TƏƏSSÜRATLARIM 5

QARDAŞIM ƏDƏBİYYAT (litera) 6

MİRVARİNİ QAÇIRANLAR 7



## SUYA AND İÇƏNLƏRİN ÇIXARDIĞI OYUNLAR

Afiq MUXTAROĞLU
*amuxtaroglu@mail.ru*

**Suyun insan həyatında necə bir mühüm rola malik olduğunu hamımız bilirik. Hətta onu da bilirik ki, insan həftələrlə ac qala bilər, amma susuzluğa cəmi bir neçə gün dözər. Əski dönəmlərdən insan su qaynaqlarına yaxın olmaq, su ilə təmasda həyatını qurmaq kimi bir məsələyə daha çox önəm verib. Müharibələr təkcə ərazilər ələ keçirmək uğrunda deyil, həm də su mənbələrinə yiyəlik etmək uğrunda aparılmış və aparılmaqdadır. Hətta bu sahənin araşdırıcıları içməli su qıtlığının dünya müharibəsinə gətirib çıxara biləcəyini də ehtimal etməkdədirlər.**

Əski çağlarda, yəni bəşəriyyətin ilkin dönəmlərində də insan susuz həyatın mümkünsüzlüyü qənaətini özü üçün aydınlaşdıra bilmişdi. Öz təcrübəsi, bəsit, emprik bilikləri vasitəsilə həyatının sudan asılılığını dərk etmişdi. Sudan asılılıq onun suya qutlu bir başlanğıc kimi baxmasına nədən olmuşdur. Və əski insan suyu müqəddəsləşdirərək qutlu saymış, ona and içmiş, onu çirkləndirməyi günah saymışdır. Əski türk xalqları axar çayları, dənizləri,yaşadıqları dünya ilə, dügər dünyalar arasında sərhəd hesab etmiş, suya canlı kimi baxmış, onu incitməklə mənsub olduğu topluma zərər verəcəyini düşünmüş, hətta bəzi türk xalqları çayda və ya dənizdə çimməyi yasaq saymış, ona girməklə özünə aid olmayan dünyanın yiyələrini incidə biləcəyini və onların qəzəbinə tuş gələcəyini güman etmişdir. Bu ibtidai bir düşüncə də olsa, təhtəlşüur olaraq, insanın suyun dəyərini anlaması idi.

Sonrakı dönəmlərin fəlsəfəsində su dünyanı təşkil edən dörd əsas ünsürdən (torpaq, su, od və hava) biri kimi dəyərləndirilmişdir.

Bu gün dünyanın ayrı-ayrı bölgələrində qida çatışmazlığından əziyyət çəkən insanlar olduğu kimi (onların sayı müxtəlif hesablamalara görə, bir milyarda yaxındır), susuzluqdan, yəni içməli çatışmazlığından "Lələ-Kərəm" olanların sayı artıq milyardlarla ölçülür. Əlimizdə olan məlumatlara görə, hər il 4 milyard insan, yəni təqribən dünya əhalisinin 2/3-si su qıtlığı ilə üzləşir. Qida çatışmazlığından əziyyət çəkənlərlə müqayisədə su qıtlığından zülm çəkənlərin sayının dörd dəfə çox olduğunu görməmək mümkün deyil. Ötəri də olsa qeyd edək ki, su çatışmazlığı kimi qlobal bir problemi həll etmək mümkünsüz görünür. İçməli su problemini qaydaya salmaq üçün dünyanın baş bilənlərinin təsis etdiyi Dünya Su Şurası da bu müşkülün çözülməsində öz acizliyini etiraf edir.

Hər su içmək üçün yararlı deyil. Su qıtlığı ucbatından dünyanın bir çox ölkələrində texniki sudan həm kənd təssərrüfatı bitkilərinin suvarılmasında, həm də içməli su kimi istifadə olunur. Dünyanın su problemilə bağlı uzun-uzadı mülahizələr söyləyib, vaxtınızı almaq istəmirəm. Niyyətim bölgəmizdə bu sahə ilə əlaqədar mövcud olan durum barədə bir-iki kəlmə deməkdir.

Elə bəri başdan deyim ki, bizim istifadə etdiyimiz su o qədər də keyfiyyətli deyil. "Cülyə" adlandırılan 10-12 metr dərinliyi olan (bəzi yerlərdə relyefdən asılı olaraq dərinlik 20-25 metr də ola bilər) su quyularından istifadə etdiyimiz su içməyə o qədər də yaralı deyil. Bunu istifadə edənlər də bilir, istifadə etməyənlər də. Açıq su quyularının suyu insan sağlamlığını yararsız hala salmaqda müstəsna rola malikdir. Bunu bilirik, amma çarəsizlikdən istifadə edirik. Düzdür imkanı olanlar vəziyyətdən çıxmaq üçün müxtəlif üsullara əl atırlar – mağazalardan keyfiyyətli su almaqla və ya başqa yerlərdən su gətirməklə. Bunun problemin kökündən həlli olmadığını hamımız anlayırıq. Yayılan qeyri-rəsmi xəbərlərə görə, 2018-ci ilin dövlət layihələrində su müşkülümüzün çözülməsi üçün artezian quyların qazılması nəzərdə tutulur və bunun problemi birdəfəlik həlledəcəyinə ümid edirik. Amma hazırda bizi düşünməyə vadar edən digər bir məsələ də var. İçməli suyun, elə texniki suyun da çirkləndirilməsi məsələsi. Kənd yerlərində çirkab sularının axıdılması üçün vahid kanalizasiya sisteminin yoxluğu bu məsələni daha da qəlizləşdirir. Adamlar su quyularının yaxınlığında az qala həmin quyular dərinlikdə kanalizasiya quyuları yaratmaqla yeganə su mənbələrini çirkləndirməklə, onsuz da yararsız olan suyu daha da bərbad duruma salırlar. Bəziləri bunu bilə-bilə, bəziləri isə bilmədən edir. Su kanallarına, suvarma arxlarına yaxın olanlar isə əlavə məsrəf çəkmədən, özlərini artıq əziyyətə salmadan kanalizasiya borularını birbaşa həmin su mənbələrinə qoşmaqla vəziyyətdən çıxış əldə etdiklərini düşünürlər. Amma bununla qidalndığımız məhsulları nə kökə saldıqlarını düşünmürlər.

**Suya and içənlərin törəmələrinin suya bu cür münasibət bəsləmələri adamı düşünməyə vadar edir. Dünənə qədər suyu müqəddəs sayan bir toplumun bu hərəkəti mənəviyyatsızlıqdan özgə bir şey deyil. Bu gün etdiklərimiz gələcəyimiz üçün, soyumuz üçün təhlükə mənbəyidir. Bununla gələcəyimiz üçün gec işə düşən bir bomba hazırlamırıqmı? Gələcəyimizi özümüz bilə-bilə minalanmış sahəyə çevirmirikmi? Düşünməyə dəyər, elə deyilmi, bəylər?!.**

## XİDİSQURİ (HƏSƏNXOCALI) KƏNDİNDƏ MƏSCİDİN AÇILIŞ MƏRASİMİ KEÇİRİLİB



14 avqust tarixində Bolnisi rayonunun Xidisquri (Həsənxocalı) kəndində məscidin açılış mərasimi keçirilib. Açılış mərasimi hacı Natiq Əliyevin Qurandan oxuduğu ayələrin oxunması ilə başladı. Mərasimdə Bütün Gürcüstan Müsəmanları İdarəsinin müftisi hacı Yasin Əliyev çıxış edərək tövbə surəsinin 18-ci ayəsini misal gətirib: "Allahın məscidlərini ancaq Allaha və axirət gününə inanan, namazı qılan, zəkatı verən və Allahdan başqasından qorxmayan kəslər inşa edərlər. Elə isə hidayət üzrə olduqları ümid edilənlər bunlardır." və fikrini "Kim Allah üçün bir ev (məscid) tiksə, Allah da cənnətdə onun üçün bir ev inşa edər." hədisiylə tamamlayıb.

Müfti daha sonra başda Gürcüstan dövləti və Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyi olmaqla maddi və mənəvi sahədə dəstək olan hər kəsə təşəkkürünü bildirib.

Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadze öz çıxışında Gürcüstanda olan məscidlər haqqında qonaqlara məlumat verib, dövlətin bu ölkədə yaşayan müsəlmanlara dəstəyini bildirib.

Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının sədri Musa Hacıyev isə çıxışında Həsənxocalı məscidinin tarixi bir abidə olduğunu vurğulayaraq belə bir tarixi abidəni yenidən inşa etdiyi üçün dövlətimizə və BGMİ-yə təşəkkürünü bildirib və məscid üçün hədiyyə təqdim edib.

Daha sonra BGMİ-nın Bolnisi müftisi Adil Nəbiyev əməyi keçən hər kəsə təşəkkürünü bildirib. Xidisquri (Həsənxocalı) kənd bələdiyyəsinin nümayəndəsi Vüqar İsayev, kənd ağsaqqalları da çıxış edərək öz fikirlərini bildiriblər. Açılışda rayon bələdiyyə başçısının və rayon icra hakimiyyətinin müavinləri də iştirak ediblər.

## 2020-Cİ İLİN PARLAMENT SEÇKİLƏRİNDƏ KEÇİD BARYERİ LƏĞV OLUNA BİLƏR

Müxalifətlə razılaşdırıldığı təqdirdə "Gürcü arzusu"nun 2020-ci ilin parlament seçkilərində seçkiləri baryersiz keçirməsi mümkündür. Məlumatı "İnterpressnyus" yayıb.

Hakim komanda gələcək seçkilərin əvvəlki kimi qarışıq, lakin təbii baryer adlanan seçki sistemi üzrə keçirilməsi imkanlarını nəzərdən keçirir.

Etibarlı mənbənin "İnterpressnyus"a verdiyi məlumata görə, komandada bu fikrin tərəfdarları ilə yanaşı əleyhdarları da var və hər şey müxalifətlə razılaşmadan asılıdır.



Bundan başqa, agentliyin məlumatına görə, "Gürcü arzusu"nun üzvləri yaxın günlərdə müxalifətlə görüşməyi planlaşdırır və bu barədə müvafiq bəyanat veriləcək.

## GÜRCÜSTANDA MEHMANXANALARIN SAYI ARTMAQDADIR

Gürcüstanda mehmanxanaların və mehmanxana nömrələrinin sayı yüksək templə artmaqdadır.

Milli Turizm İdarəsinin məlumatlarına görə, 2017-ci ilin iyulunda Gürcüstanda 1900 mehmanxana fəaliyyət göstərib və həmin mehmanxanalarda 26,8 min nömrə olub. Bu göstərici keçən ilin eyni dövrünə nisbətən 16% çoxdur. Mövcud mehmanxana nömrələrində isə cəmi 65,1 min yataq yeri olub ki, bu da ötən illə müqayisədə 18% çox deməkdir. Bu isə o deməkdir ki, Gürcüstan mehmanxanaları gündə 65 min turisti qəbul etmək imkanına malikdir. Bundan başqa, Gürcüstanda mənzillərin və evlərin turistlərə sutkalıq kirayəyə verilməsi xidməti də geniş inkişaf edib.

Bu il Gürcüstanda 31 böyük mehmanxana, o cümlədən də 146 nömrəni əhatə edən Wyndham Batumi, 101 nömrəyə malik Sky Tower Hotel Batumi, 119 nömrəsi olan İbis Styles Tbilisi və digərləri fəaliyyətə başlayıb.

## ƏCNƏBİ TURİSTLƏRİN ÖLKƏMİZDƏ NƏ QƏDƏR PUL XƏRCLƏDİKLƏRİ BƏLLİ OLUB

2017-ci ilin 7 ayı ərzində Gürcüstana 4 milyon əcnəbi gəlib. 24 saatdan çox Gürcüstanda qalanların sayı isə 1,8 milyon nəfər olub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 30% çoxdur.

Beynəlxalq təsnifata əsasən, bir ölkədə 24 saatdan artıq qalan və yerli xidmətlərdən istifadə edən əcnəbilər turist sayılırlar.

Gürcüstan Milli Bankı əcnəbi turistələrin ölkəmizdə nə qədər pul xərclədiklərini hesablayıb. Məlum olub ki, 2017-ci ilin altı ayı ərzində Gürcüstanda olan əcnəbi vətəndaşlar 1 milyard 91 milyon dollar və ya ötən ilin eyni dövründəkinə nisbətən 26% çox pul xərcləyiblər.

2017-ci ilin yanvar-iyun aylarında Gürcüstanda 1,3 milyon turist olub. Hər bir turist orta hesabla Gürcüstanda 839 dollar xərcləyib.

Son illər ərzində Gürcüstanda turizmin statistikası belədir:

2007-ci ildən 2013-cü ilə qədər Gürcüstana gələnlərin say artımı orta hesabla 30% təşkil edir. Ən yüksək artım 56%-lik göstərici ilə 2012-ci ildə qeydə alınıb. 2013-cü ildə gələnlərin sayında 21% artım qeydə alınsa da, 2014-cü ildə bir sıra ölkələrin vətəndaşlarına viza tətbiq edildiyindən artım kəskin şəkildə azalaraq, cəmi 2,3% olub. 2015-ci ildə gələnlərin sayı artaraq 7%-ə, 2016-cı ildə isə 7,6%-ə çatıb.

## ACLIQ HAQQINDA TEZ-TEZ EŞİTDİYİMİZ SUALLAR

Bu suallara BMT-nin Ümumdünya Ərzaq Təşkilatının araşdırmaları və təsnifatı əsasında cavab verməyə çalışacağıq.

– Dünyada qida məhsulları çatışmazlığı varmı?

Bu gün dünyada hamının sağlam və məhsuldar ömür sürməsini təmin etmək üçün ərzaq məhsulları kifayət qədərdir.

– Aclıq nədir?

Yemək çatışmazlığı zamanı aclıq hiss etmək adi haldır. Lakin aclığın müxtəlif cür müəyyənləşdirilən ayrı-ayrı təzahürləri var:

Doyunca yeməmə – istifadə olunan qidanın fəal həyat üçün lazım olan, minimal fizioloji tələbata cavab verən kifayət qədər kaloriyə (enerji) malik olmaması nəticəsində yaranan vəziyyətdir. Hal-hazırda dünyada əksəriyyəti inkişaf etməkdə olan ölkələrdə yaşayan 840 milyona yaxın adam yarıac-yarıtox vəziyyətdədir.

Pis qidalanma – insanın pis və ya kifayət qədər qidalanmaması halıdır. Bu, sadəcə olaraq, istehlak olunan qidanın həcmi ilə ölçülmür. Pis qidalanma zülallı qidaların, enerji və doyumlu mikroelementlərin çatışmazlığı ilə xarekterizə olunur və tez-tez yolxucu və digər xəstəliklərlə müşaiyət olunur. Düzgün qidalanmadan məhrum olan adamlar adi infeksiyadan, qızılca və ya mədə pozulmasından ölə bilərlər. Pis qidalanma yeyilən yeməyin miqdarı ilə deyil, onun insanın çəkisi, boyu, eləcə də yaşı ilə nisbəti əsasında ölçülür.

Qeyri-kafi çəki ciddi prosesləri əks etdirən, çəkinin kifayət qədər itirilməsinə gətirib çıxaran doyunca yeməmənin təzahürüdür. Arıqlama adətən aclığın və ya xəstəliklərin nəticəsidir.

– "Aclıq" necə müəyyən edilir?

"Aclıq" anlayışını müəyyənləşdirən bir neçə üsul olmasına baxmayaraq, ekspertlər aclıq böhranı elan etməzdən əvvəl üç spesifik halın təsdiq olunmasını gərəkli sayırlar:

- Ev təsərrüfatının ən azı 20%-inin ərzaq qıtlığı keçirməsi və bu vəziyyəti düzəltmək üçün imkanın olmaması;
- Doyunca yeməmənin səviyyəsi 30%-i keçir;
- Ölüm səviyyəsi hər gün 10 000 adama 2 ölümdən artıq olur.

– Kim aclıq keçirir?

KİV-in yaratdığı təəssürata baxmayaraq, fövqaladə vəziyyət nəticəsində aclıq keçirənlər dünyanın bütün aclıq keçirən əhalisinin 8%-indən azdırlar. Az adam anlayır ki, dünyada ABŞ, Kanada və Avropa İttifaqının birlikdə götürülmüş əhalisindən çox, yəni 795 milyona qədər aclıq keçirən var. Onların arasında analarının südü kifayət qədər olmayan körpələr, qayğılarına qalacaq qohumları olmayan yaşlılar var. Bunlar şəhərlərin yoxsul məhəllərinin sakinləri, özünün pay torpağı olmadığından başqalarının torpaqlarını becərən fermerlər, QİÇS xəstələrinin yetim uşaqları və sağalmaq üçün xüsusi intensiv qidalanmaya ehtiyac duyan xəstələrdir.

– Aclıq keçirənlər harada yaşayırlar?

Aclıq keçirənlərin miqdarı Şərqi, Mərkəzi və Cənubi Afrikada daha yüksəkdir. Tam qidalanmayanların üçdə birə qədəri az gəlirli inkişaf etməkdə olan ölkələrin kənd yerlərində yaşayırlar. Lakin şəhərlərdə də son vaxtlar aclıq çəkənlərin sayı artmaqdadır. Onların yarıdan çoxu Asiyada və Sakit okean regionu ölkələrində, dörddə birə qədəri isə Afrikanın sub-Saxara bölgəsində yaşayır.

– Dünyada aclıq keçirənlərin sayı azalırmı?

Aclıq çəkənlərin sayının azalmasında əhəmiyyətli tərəqqi 80-90-cı illərdə əldə olunsa da, son onilliklərdə onların sayı ləng, lakin daim artmaqdadır. 1995-1997 və 2004-2006-cı illərdə onların sayı Latın Amerikası və Karib hövzəsi ölkələrindən savayı bütün regionlarda artmışdır. Lakin bu regionlarda aclıqla mübarizədə əldə olunan uğurlar neftin yüksək qiyməti və 2008-ci ilin qlobal iqtisadi böhranı nəticəsində geriləmişdir.

Bu gün bəşəriyyətin səkkizdə bir hissəsi sağlamaq olmaq və fəal həyat tərzi keçirmək üçün kifayət qədər qida ala bilmir, ona görə də aclıq və tam qidalanmama insanların sağlamlığına birlikdə götürülmüş QİÇS, qızdırma və vərəmə nisbətən daha çox təhlükə yaradır.



– Pis qidalanmanın nəticələri necədir?

Pis qidalanma səbəbindən müxtəlif – məsələn, arıqlıq və ya müəyyən yaş üçün olduqca alçaqboyluluq, vitamin və mineral çatışmazlığı (məsələn, orqanizmdə yod çatışmazlığı anemiya yaradır), bəzən isə hətta şişmanlıq kimi problemlər meydana çıxır. Pis qidalanma bu əlamətlərlə müəyyənləşdirilir:

Çəkinin itirilməsi əhəmiyyətli şəkildə arıqlamaya gətirib çıxaramış ciddi prosesləri əks etdirən əlamətdir. Belə arıqlama adətən açlığın və ya xəstəliklərin nəticəsidir.

Alçaqboyluluq əhali arasında uzunmüddətli doyunca yeməmə prosesini əks etdirən xroniki şəkildə pis qidalanmanın əlamətidir. Alçaqboyluluq uşağın yaşına görə boyunun nisbəti ilə müəyyənləşdirilir.

Qeyri-kafi çəki uşağın yaşına görə çəkisinin nisbəti ilə ölçülür. İnkişaf etməkdə olan ölkələrdə təqribən 146 milyon uşaq yaşlarına görə qeyri-kafi çəkiyə malikdir.

– Mikroelementlər nə dərəcədə mühümdür?

Mikroelementlərin – vitamin və mineralların çatışmazlığı dünyada iki milyarda yaxın adamın sağlamlığında mənfi iz qoyur. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) dəmir, A vitamini və sink qıtlığını inkişaf etməkdə olan ölkələrdə xəstəliklər nəticəsində baş verən ölüm hallarının on əsas səbəbindən biri kimi görür.

- Dəmir qıtlığı dünyada milyardlarla insanın sağlamlığına təsir edən arıqlığın daha geniş yayılmış formasıdır. Dəmir qıtlığı ölkənin məhsuldarlığında mənfi şəkildə əks olunur və koqnitiv inkişafı əngəlləyir.
- A vitamini çatışmazlığı bütün inkişaf etməkdə olan ölkələrdə uşaqlar arasında korluğun əsas səbəbidir. 116 ölkədə 140 milyondan çox məktəb yaşına qədər uşaq A vitamini çatışmazlığından əziyyət çəkir. A vitamini çatışmazlığı diareya, qızılca və qızdırmadan ölüm risklərini artırır.
- Yod qıtlığı dünyada bir milyarddan çox adamın sağlamlığına mənfi təsir göstərir. Hamiləlik dövründə analarının yeməyində yod çatışmadığından 20 milyona yaxın uşaq əqli çatışmazlıq əlamətləri ilə doğulur.
- Sink çatışmazlığı uşaqlarda boy artımını ləngidir və immuniteti aşağı salır; ildə 800 000 uşaq orqanizmdə sink çatışmazlığı ucbatından ölür.

Afayət AFİQ

## SAMEQRELODA YEDDİ YENİ MİLYONÇU MEYDANA ÇIXIB

Anakliyada dərinsulu limanın inkişafı və tikintisi üzrə layihə çərçivəsində xüsusi mülklərin alınması məqsədilə dövlət büdcəsindən kompensasiya şəklində 49 604 542 lari ödənilib.

Agentlik indiyədək 367 razılaşmanı rəsmiləşdirib.

Sənəddə deyilir: "63,5 hektara yaxın torpaq, 42 ev və 2 dağılmış tikili alınıb. Agentlik vətəndaşlara (270 fiziki şəxsə/ailəyə) 49 604 542 lari ödəyib". Onlardan 7 nəfərə bir milyon lari və daha çox ödənilib. Bununla belə 367 ailədən yalnız 9-u kompensasiyanı qəbul etməkdən imtina edib.

Anakliyada dərinsulu limanın inkişafı və tikintisi üzrə layihənin həyata keçirilməsi çərçivəsində torpaqların satın alınması senyabrın 1-dək davam edəcək. Bu, gələcək limanın bilavasitə əhatə etdiyi sahəyə daxil olacaq ərazilərə aiddir. Liman zonasının qonşuluğunda yerləşən torpaqlar sentyabrın 15-dək alınacaq.

Məlumdur ki, torpaq sahələrinin və tikililərin alınması üçün 2017-ci ildə Gürcüstanın dövlət büdcəsindən 96 milyon dollar ayırılıb.

## GÜRCÜSTAN BANKININ BAŞ DİREKTORU İLDƏ 3 MİLYON LARİDƏN ÇOX ƏMƏKHAQQI ALIR

"Gürcüstan Bankı"nın keçmiş baş direktoru Murtaz Kikoriya 2015-ci ildə əməkhaqqı şəklində 3 133 280 lari 86 tetri alıb. Kikoriyanın gəlirləri və xərcləri barədə İctimai Xidmət Bürosu məlumat yayıb.

Bankirin maliyyəsi əsasən "Gürcüstan Bankı"ında və "TBC bank"-da yerləşdirilib.

Onun xərcləri arasında Madriddə 500 min avroya oğlu üçün aldığı mənzil və onun təmirinə 182 785 avro ödəməsi də qeyd olunub. Kikoriya xeyriyyə işlərinə 55 000 lari xərcləyib.

2016-cı il dekabrın 1-dən Gürcüstan parlamenti Murtaz Kikioriyanı Milli Bank Şurasının üzvü seçib. Kikoriya Gürcüstan Milli Bankının vitse-prezidentidir.

## GÜRCÜSTANIN İLK YERALTI QAZ ANBARININ MƏNBƏYİ "ŞAHDƏNİZ" YATAĞI OLACAQ



Gürcüstanın Cənubi Samqori neft yatağında tikiləcək yeraltı qaz anbarında Azərbaycanın "Şahdəniz" yatağının qazı saxlanılacaq. Məlumatı Gürcüstanın energetika naziri İlya Eloşvili verib.

Eloşvilinin sözlərinə görə, qaz anbarı layihəsi böhran vəziyyətində istehlakçıları qazla fasiləsiz təmin etməyi, Gürcüstanın enerji təhlükəsizliyini əhəmiyyətli dərəcədə yüksəltməyi, ölkədə qaza olan tələb və təklif arasındakı mövsimi uyğunsuzluğu aradan qaldırmağı, Gürcüstanda rəqabət qabiliyyətli qaz bazarının yaranmasını və yerli qaz bazarının Avropanın qaz bazarları ilə inteqrasiyasını təmin edəcək.

İyulun 14-də Gürcüstan Neft və Qaz Korporasiyası yeraltı qaz anbarının tikintisi məqsədilə beynəlxalq tender elan edib.

Bir qədər əvvəl SOCAR Energy Georgia-nın rəhbəri Mahir Məmmədov SOCAR-ın da tenderdə iştirak edəcəyini bildirmişdi.

Qaz anbarının tikintisinə 2018-ci ilin əvvəlində başlamaq nəzərdə tutulur. Başa çatması 2021-ci ildə gözlənilən tikintidən sonra, burada 210-280 milyon kubmetr qaz saxlamaq mümkün olacaq.

Layihənin ümumi dəyəri təqribən 270 milyon dollar qiymətləndirilir.

## SUYUN VƏ ELEKTRİK ENERJİSİNİN TARİFLƏRİ YENİ METODOLOGİA İLƏ MÜƏYYƏNLƏŞDİRİLƏCƏK

2018-ci ildən etibarən Gürcüstanda suyun və elektrik enerjisinin tarifləri yeni metodologiya ilə müəyyənləşdiriləcək.

Müvafiq qərar Gürcüstanın su təcihizatı və energetika üzrə Milli Tənzimləmə Komissiyasının iclasında qəbul olunub.

Qərara əsasən, tariflər üç ildə bir dəfə müəyyənləşdiriləcək.

Komissiyadan bildiriblər ki, üç il ərzində tariflərə yalnız xüsusi hallarda baxıla bilər. Qərar 2018-ci il yanvarın 1-dən qüvvəyə minəcək.

Qeyd edək ki, bundan əvvəlki metodologiyaya əsasən Gürcüstanda tariflər hər il müəyyənləşdirilirdi.



## ABŞ-RUSİYA MÜNASİBƏTLƏRİNİN YENİ ÜFÜQLƏRİ

Sahib MUSTAFA
sahib1975.sm@gmail.com

**ABŞ-Rusiya münasibətlərində yaşanan yeni diplomatik böhran iki ölkə arasında gərginliyin yeni fazaya qədəm qoymasına işarədir. Tramp artıq tam templə Moskvaya qarşı təzyiqlərini səfərbər etməkdədir. Ağ Ev administrasiyasının Rusiyaya qarşı tətbiq edəcəyi yeni sanksiyalar paketinə Kremlin cavabı "rusca" oldu. ABŞ-ın Rusiyadaki diplomatik korpus əməkdaşlarının sayını 755 nəfər azaldılaraq, 455-ə endirilməsi tələbi Putinin Vaşinqtona edə biləcəyi adekvat həmlə tədbiri kasadlığının göstəricisidir. Məsələnin diqqətçəkən tərəfi gərgin ABŞ-Rusiya münasibətlərinin içərisində ölkəmizin də yer almasıdır. Rəsmi Tiflisin xarici siyasətdə get-gedə konkretləşən orientasiyası Rusiyanı dərindən narafat etməkdədir. NATO-nun "Layiqli tərəfdaş -2017" təlimlərinə Gürcüstanın da qoşulmasına Putin şübhəsiz ki, seyriçi qalmayacaq.**

NATO-nun hərbi təlimlərinin məhz Rusiyanın cənub qonşuluğunda – Gürcüstanda keçirilməsi Moskvaya əlavə həyacan verir. ABŞ-ın vitse-prezidenti Mayk Pensin Gürcüstana səfəri zamanı "ABŞ hər zaman Gürcüstanın yanındadır" bəyanatını səsləndirməsi Vaşinqtonun regionda olan maraqlarını dəqiq olaraq ortaya qoyur. Bu isə Rusyanın maraq dairələrinə aid olan coğrafiyada ABŞ-ın "qırmızı xətti" keçməsi anlamına gəlir. Baş nazir Kvrikaşvilinin – "Hər zaman qlobal təhlükəsizliyin keşiyində durmaq və Qafqaz regionunda da təhlükəsizliyin təmin edilməsində Ağ Evin yanında qərar tutmaqdan Gürcüstan qürur duyur" – deməsi Tiflisin Moskvaya yönəlik mövqeyini açıq şəkildə izah edir. Çünki, Rusiya təcavüzkar ölkədir və hazırda Gürcüstan rəhbərliyi Kremlin ölkəmizə qarşı işğalçı siyasətinin yaxın perspektivdə də dəyişməyəcəyindən əmindir. Real işğal faktı azmış kimi, Rusiya bu gün də "sürünən işğal" vasitəsi ilə Qori yaxınlığında Bakı-Tiflis-Ceyhan neft kəmərinin bir qisminə nəzarəti ələ keçirib. Baş verə biləcək istənilən diversiya aktı ölkəmizi həm ekoloji fəlakət riski ilə üz-üzə qoyur, həm də enerji təhlükəsizliyini təhtid edir. Bu tip addımlar isə Rusiyaya yad deyil.

Bu arada, Rusiyanın Qafqaz siyasətində tələm-tələsik addımlar atması məsələnin ciddiyyətindən xəbər verir. Moskvanın Cənubi Qafqazda ən etibarlı müttəfiqi Ermənistanla birgə Rusiya-Ermənistan Silahli qüvvələrinin birləşmiş hərbi qruplaşmalarının yaradılması ideyası Kremlin dərin təşvişə düşməsinin göstəricisidir. Bu addım şübhəsiz ki, Ermənistanla müharibə şəraitində olan Bakını da dərindən narahat etməyə bilməz. Ona görə də, istirahətini pozan Putinin Azərbaycanın nəbzini yoxlamaq üçün İlham Əliyevi nəyə görə Soçiyə dəvət etməsi aydınlaşmaqdadır. Çox güman ki, Putin Azəbaycan prezidentini inandırmağa çalışmışdır ki, Rusiya-Ermənistan ordu birləşmələrinin yaradılması Bakiya qarşı yönəldilməyib, yalnız Qərbin təhdidlərinə adekvat həmlədir.

Prezident Putunin "08-08-08" (8 avqust 2008-ci il beşgünlük Rusiya-Gürcüstan müharibəsi) hadisələrinin ildönümüdə separatçı Abxasiyaya səfərini Tiflisə qarşı bir basqı mesajı kimi dəyərləndirmək olar. Dolayı yolla Abxaziya və Cənubi Osetiyanın "müstəqilliyinə" Gürcüstan tərəfindən təhlükə yaranarsa, Kreml qondarma qrumların yanında olacağını bildirmək istəyir.

Gürcüstan ərazisinin bir qisminin Rusiya tərəfindən ilahq edilməsi çətin ki, Vaşintonu dərindən əndişələndirsin. ABŞ-ın əsl hədəfi Rusiyanın NATO qüvvələri tərəfindən çənbərə alinmasıdır. Moskvanın Tiflisə qarşı yürütdüyü siyasətin Vaşinqtonu narahat etməsini hər nə qədər Mayk Pens dilə gətirsə də, əsas məqsəd NATO-nun Rusiya sərhədlərinə yaxınlaşaraq Kremlə təzyiqləri artırmasıdır.

**2013-cü ildən sonra Rusiya-Gürcüstan münasibətlərində yeni bir səhifənin açılacağına olan ümidlər özünü doğrultmadı. Moskvanın Tiflislə münasibətlərində, kiçicik iqtisadi əlaqələr nəzərə alınmazsa, heç bir irəliləyişin olmadığı faktdır. Kremlin Gürcüstana qarşı siyasətində nə vaxtsa konstruktiv mövqe tutacağı isə rasional düşüncədən uzaqdır. Çünki Rusiya NATO-dan qorunmaq üçün Gürcüstanı bufer zonası kimi istifadə etməkdədir. Belə bir şəraitdə Tiflisin xarici siyasət vektorunda dəşiklik etməkdən başqa çarəsi yoxdur.**

## İNGİLTƏRƏ AVROPA İTTİFAQINDAN GÖMRÜK RAZILAŞMASI TƏLƏB EDİR

İngiltərə Aİ-dən müvəqqəti Gömrük İttifaqı razılaşması tələb etməyə hazırlaşır.

Böyük Britaniya hökuməti Aİ-dən çıxdıqdan sonra müəyyən müddət üçün gömrük razılaşması ilə bağlı müraciət edəcək.

Bununla əlaqədar İngiltərənin Brexsit müzakirələri üzrə məsul naziri Devid Devis açıqlama verib.

Devid Devis deyib: "Müvəqqəti Gömrük İttifaqı barədə razılaşmada Böyük Britaniyanın və Avropanın ortaq mənafeləri nəzərə alınacaq. İngiltərə Aİ arasında qarşılıqlı ticarətin həcmi 230-290 milyard avro təşkil edir".

Qeyd edək ki, artıq Böyük Britaniyanın Avropa Birliyindən 2019-cu ilin martında çıxacağı açıqlanıb. Birləşmiş Krallıq Aİ-nin ümumi bazarını və Gömrük İttifaqını da tərk etməlidir.

## RUSİYA HƏRBİ XƏRCLƏRİ AZALDIR



2018-ci ildə dövlət büdcəsindən müdafiə üçün ayırılacaq vəsaitlərə məhdudiyyətlər qoyulacaq.

Bu sözləri Rusiya Federasiyasının Prezidenti Vladimir Putin deyib.

O bildirib ki, bu məhdudiyyətlər ordu və donanmaya məxsus təchizatların moderinləşdirilməsi planına təsir etməyəcək.

Putin bildirib: "Gələn ildən etibarən büdcəyə qənaət məqsədi ilə müdafiə sahəsindəki xərcləri azaldacağıq. Dövlət müdafiə sifarişlərini tamamladıqdan sonra yeni proqram hazırlayacağıq".

## ALİMLƏR 2016-CI İLİ ƏN İSTİ İL ADLANDIRIBLAR

Amerikan alimləri iqlimin qlobal istiləşməsinə dair yeni məruzə təqdim ediblər. Bu məruzəyə əsasən, istilikxana qazlarının toplanması yeni rekord vurub, 2016-cı il isə 137 illik müşahidə ərzində tarixin ən isti ili olub.

Bu barədə ABŞ-ın Okeanların və Atmosferin Tədqiqi üzrə Milli İdarəsinin (NOAA) məruzəsində deyilir.

Buna qədər isə ən isti il 2015-ci hesab olunurdu.

Məruzənin hazırlanmasında NOAA alimləri ilə yanaşı, 60-dək ölkədən 450-dən çox mütəxəssis çalışıb.

2016-cı ildə atmosferdə istilikxana qazlarının toplanması rekord səviyyəyə – 402,9 milyona çatıb, bu isə bir il əvvəlki göstəricidən 3,5 dəfə çoxdur və son 58 il ərzində ən böyük artışdır.

Yer səthində və okeanlarda hərarət 2016-cı ildə 0,45-0,56 dərəcəyə arasında tərəddüd edib. Dənizin səviyyəsi 1993-cü ildən bəri ilk dəfə rekord vuraraq, 82 mm qalxıb.

## BİLL QEYTS DÜNYANI TƏƏCCÜBLƏNDİRMƏKDƏ DAVAM EDİR



Planetin ən varlı adamı, Maykrosoft şirkətinin keçmiş başçısı xeyriyyə məqsədi ilə 4,6 milyard dollar ayırıb.

Blumberq agentliyi xəbər verir ki, milyarder bu məbləğlə son 17 ilin ən səxavətli ianəçisi olub.

61 yaşlı Qeyts öz ianəsini hələ iyunun 6-da etsə də, onun bunu kimin üçün etdiyi gizli saxlanılır.

Xatırladaq ki, Maykrosoft kompaniyasının yaradıcısı və həyat yoldaşı Melinda 23 ildə xeyriyyə işlərinə 32 milyard dollar ianə ayırıblar. Bu məbləğin əsas hissəsi Qeytsin arvadıyla birgə yaratdığı xeyriyyə fonduna ayırılıb.

## QLOBAL İSTİLƏŞMƏNİN SƏBKARLARINDAN BİRİ BƏRAƏT ALDI



Dəvələr inəklərə nisbətən az metan yaratdıqlarından, onların istilikxana effekti yaratmaqda xidmətləri şişirdilib.

Əvvəllər düşünürdülər ki, dəvələr öz qohumları alpaklar və lamalar kimi qlobal istiləşmədə inəklər qədər günahkardır. Lakin indi "səhra gəmisi" elm adamları tərəfindən təmizə çıxarılıb. İsveçrə ekspertləri aşkarlayıblar ki, dəvələrdə maddələr mübadiləsi yavaş gedir, onlar az qida istifadə etdiklərindən daha az metan yaradırlar.

Ekoloqların əksəriyyəti ümumi metanın 20 faizinin ayırılmasında gövşəyən heyvanları günahlandırırlar. Buna görə, əsas məsuliyyəti Yer kürəsində sayları rekord səviyyədə – 1,5 milyard olan inəklərin üzərinə qoyurlar. Ümumdünya Vəhşi Təbiət Fondunun (WWF) məlumatına görə, bir gövşəyən heyvan ayrılıqda bir gündə 1000 litr metan yaratmağa qadirdir. Dəvələr də ekoloji rahatlığın pozulmasının günahkarlarından hesab edilirdilər. Hətta Avstraliyada ətraf mühitin pisləşməsinə bəxş etdikləri paya görə "donqarlar"ı güllə ilə qırmağa cəhd belə edilib. İsveçrə alimlərinin gəldiyi qanət, dəvələrə olan münasibətin yanlışlığını və dəvələrin çox olduğu ölkələrdə metanın səviyyəsində onların rolunun şişirdildiyini sübut edir.

Bundan başqa, tədqiqatçılar inəkləri günahlandırmaq əvəzinə, onları balıq yağı ilə bəsləməyə və yüksək səviyyədə metanın yaranmasının qarşısını alan xüsusi peyvənd etməyə çağırırlar.

## BİR MƏRASİMLƏ İLGİLİ TƏƏSSÜRATLARIM

Hacı BƏKİROĞLU

***Uca Allah dünyanı xəlq edib insanı yaratdıqdan sonra insanı imtahan etmək üçün önünə bəzi əngəllər qoydu. Bu əngəllərə də halallar və haramlar dedi. Təbii ki, bizləri harama düşməkdən qorumaq üçün də bir çox halal nemətlər yaratdı. Ancaq nəfsinə yenilən insanoğlu bu qədər halalın içərisində sanki o haramı işləməsə həyatı sonlanacaqmış duyğusuna qapıldı.***

Doğrusu başqa bir mövzuda yazmağı düşünürdüm, ancaq bu yaxınlarda iştirak etdiyim bir sünnət toyunda işlədilən bir ifadə məni bu yazını yazmağa məcbur etdi.

Bəhs etdiyim məclisdə spirtli içki verilmədi və sünnət məclisinin əsl formasına riayət edilməyə çalışıldı. Düzdür, bəzi əskikliklər də vardı.

Bu məclisdə ağsaqqalın biri məclisi idarə etmək üçün masabəyini dəvət edərək "mənə də maraqlıdır görək içkisiz məclis necə davam edəcək?" deyə ifadə etdi. Məncə çox gözəl davam etdi.

Gəlin öncəliklə bu sünnət mərasimi haqqında kiçik bir xatırlama edək və görək bu məclis niyə içkisiz olmalıdır, sonra mövzumuza qayıdaq. Əslində bu sünnət məsələsi də elə mövzumuzun bir hissəsidir.

Sünnət mərasimi çox qədim zamanlardan, bütün peyğəmbərlərin də əməl etdikləri və peyğəmbərimizin də bu gözəl işi davam etdirməsiylə mövcuddur. Sünnət sözü isə



gedilən yol deməkdir. Yəni peyğəmbərimizin yolu ilə getməkdir. Deməк ki, dini bir vəzifəmizdir. Dinimizin, eləcə də bütün dinlərin əsasında sərxoşedici hər şey haramdır.

Elə isə bizlər əgər peyğəmbərin etdiyi bir mərasimi həyata keçiririksə, bəs niyə bu məclislərə haram qatırıq?

Bilirəm yenə deyəcəksiniz ki, sovetlər zamanında belə edirdilər. Sovetlər zamanında bizi dinimizdən uzaqlaşdırmaq üçün başımıza hər cür oyun açırdılar. Axı indi sovetlər zamanı deyil. İndi niyə özümüzə, əslimizə qayıtmırıq? Sovetlər Birliyi dağılandan bu yana 25 ildən çox zaman keçib. Ancaq bizlər yenə də özümüzü tapa bilməmişik.

Çox şükür, bu gün haqq yoluna gələn gənclərimizin sayı gündən günə artmaqdadır. Və bu gənclər inşallah ki, yaxşı ilə pisi ayırd etməyi bacaracaqlar.

Məclislərimizdə süfrələrə Allahın lütf etdiyi o qədər gözəl nemətlər sərilir ki, insanın şükr etməsi lazım olduğu halda, bu qədər halalın içində bir haram yoxdur deyə küfrə yön alır. Sonra da başımıza gələn müsibətlərdən şikayətçi oluruq.

***Bu gün istər xeyir işlərimiz, istərsə də yas mərasimlərimiz bu haldadır. Heç zaman orta yolu tuta bilməmişik. Xeyir işlərimiz şərabsız olmaz deyib, halal mayamıza haramı qatmışıq. Üstəlik, heç məclisimizə dəvət olunmayan insanların ucbatından qanımızı qaraltmışıq. Yas mərasimlərimizdə də el nə deyər prinsipini düstur edərək, cənazəmizi unudub süfrə dərdinə düşmüşük .***

## YAYIN BÜRKÜLÜ YOL QEYDLƏRİ

***Tiflisdən Rustavi marşrutu ilə gələsi oldum. Hələ tərpənmək vaxtına var idi. Bir də sürücü gəldi ki, "camaat, kondisioner işləmir, xarab olub. Yəni bilin, sonra yolda narazılıq olmasın". Qardaban marşrutlarında qulağım belə şeyə alışmadığı üçün xoruma gəldi. Sərnişinlər söylənməyə başladı ki:***

- Niyə düzəltdirmirsiniz, necə olur ki eyni vaxtda marşrutların kondisinerlərinin heç biri işləmir ?

- Düzəltdirmək xərc istəyir, o da dəymir o xərci çəkməyə.

- Dəymir işləməyin, beynimizi apardınız ağlaşmalarınızla.




İndi gəlin Qardaban marşrutuna baxaq. Kondisioner nədi, a kişi, elə marşrutlar var heç açılan ayna tapa bilməzsən. Amma Rustavi marşrutları hamısı təzə (sprinter deyirsiz, nə deyirsiz ondandır), 6-7 açılan aynası var. Üstəlik, Qardabaniyə qədər məsafə yol iki Rustavi yolu qədərdir (50 km). Bir saat yarım vaxt lazım olur gedib çıxana kimi. Bu qədər vaxtı istidə, bürküdə boğula-boğula gedən xalq kondisioner nədir, heç açılan ayna soruşmur sürücüdən.

Biz qara günə öyrənmiş xalqıq. Bizdə tələb etmək ənənəsi yoxdur, heç bunu formalaşdırmaq istəyən ciddi kəsim də yoxdur.

Rustavi sərnişinləri çox vaxt Qardaban marşrutlarına minmirlər, məlum səbəblərdən (başqa səbələr də var, o başqa mövzudur).

Bizimkilər amma o açılan aynası olmayan marşrutda yer olmayanda belə minirlər (50 km yol, a kişi). Heç kəs durub deməsin ki, tələsiyirlər. Hara? Olmaya 1000 larilik iş yerləri qalıb, onları gözləyir? Yox, Hacı Əfəndi haqqı (tələbələr xaric, dərsə gecikəndə məcburiyyətdir).

Bircə cavabı var, biz qara günə öyrəşmiş xalqıq. "Ə, nə olasıdı, indi də ayaqüstə gedim".

Niyə, bax niyə? Nə zülümə düşmüsən? O 2,5 lari sənin gündəlik gəlrinin 10-20-30-40%-ni (bəlkə də lap çox) təşkil edir, bir rahat xidmətə xərcləyə bilməzsənmi? O bir deyim var el arasında "Səni anan elə qara günlərəmi doğmuşdu?". Yaxan elə də idimsiz tanınır, gərək özünü təmiz urvatdan salasanmı?

İnandırım sizi, o ayaq üstə gedənlərin lap çoxu heç yerə də tələsib eləmir, sadəcə qara günün vərdişidir.

O rustavililər niyə etiraz etdilər, çünki o komfort əvvəl var idi, yoxa çıxıdığına görə etdilər. O "milyonçu" oyununda var nə, "itirilməyən məbləğ", bax hər bir qrupun sosial həyatında da belə bir itirilməyən inkişaf nöqtəsi var, ondan aşağı düşəndə etiraz başlayır. Əlbəttə, söhbət normal qrupdan gedir, ağ günə çıxmaq istəyəndən, daha qara günə öyrəncəkli qrupdan yox.

Biz isə olanı əlimizdən alsalar da susuruq , susduqca da alınır.

Bu qızıl qaydadır.Tələb etdikcə artır, mədə böyüyür və daha çox istəyir və daha çox alır.

***Susduqca isə alınır,alınır ,alınır.***

Həmid SADIX

## ÖLKƏMİZİN AVTOMOBİL YOLLARINDA HƏR GÜN BİR NƏFƏRDƏN ÇOX ADAM HƏLAK OLUR

Yol-nəqliyyat qəzalarında ölüm faizinə görə Gürcüstanın göstəricisi Avropa və Mərkəzi Asiya ölkələri arasında ən yüksək göstəricilərdən biridir. Bu, Avropa İttifaqı ölkələrində yol-nəqliyyat hadisələrində həlak olanların miqdarından iki dəfə yüksəkdir.

2016-cı ildə qəzalar nəticəsində Gürcüstanda ölənlərin sayı 581 nəfər təşkil edib, 2017-ci ilin yanvar-iyun aylarında isə həlak olanların sayı 233 nəfər olub, bu da gün ərzində orta hesabla 1,3 nəfərin ölümü deməkdir.

Gürcüstan Milli Statistika Xidmətinin məlumatına görə, yol-nəqliyyat hadisələrində ən böyük itki 2008-ci ildə qeydə alınıb. Həmin il avtoqəzalarda 867 nəfər həlak olmuşdu. 2008—2016-cı illər ərzində qəzalarda ölüm faizinin statistikası isə aşağıdakı kimidir:

2008-ci il 867 nəfər, 2009-cu il 741 nəfər, 2010-cu il 685 nəfər, 2011-ci il 526 nəfər, 2012-ci il 605 nəfər, 2013-cü il 514 nəfər, 2014-cü il 511 nəfər, 2015-ci il 602 nəfər, 2016-cı il 581 nəfər.

## PEYVƏND EDİLMƏMİŞ UŞAQLAR BAĞÇAYA VƏ MƏKTƏBƏ QƏBUL EDİLMƏYƏCƏKLƏR



Yaxın gələcəkdə Gürcüstanın uşaq bağçaları və məktəbləri peyvənd olunmamış uşaqları qəbul etməyəcəklər.

Gürcüstanın İctimai Sağlamlıq və Xəstəliklərə Nəzarət üzrə Mərkəzinin mütəxəssisləri Avropa modelini öyrənirlər və bu model uşaqları peyvənd etdirməyi valideynlərin öhdəsinə qoyacaq, yoxsa onları məktəbəqədər müəssisələrə və ibtidai məktəblərə qəbul etməyəcəklər. Hazırda uşaqlar istisnasız olaraq valideynlərinin arzusu ilə peyvənd edilirlər.

İctimai Sağlamlıq və Xəstəliklərə Nəzarət üzrə Milli Mərkəzinin elmi rəhbəri Paata İmnadze bildirib ki, həkimlər valideynləri peyvənd məsələsinə ciddi yanaşmağa çağırsalar da, Gürcüstanda uşaqların 10%-i peyvəndsiz qalır.

İmnadze deyib: "Biz çoxdan qanun qəbul etmək istəyirik. Avropa İttifaqı ölkələri artıq belə qanun qəbul ediblər, ümid edirik ki, bu qanun bizdə də qəbul ediləcək. Hazırda Qərb ölkələrinin qanunlarının öyrənilməsi gedir. Bu qanunun Gürcüstanda nə vaxt qəbul ediləcəyi bəlli deyil".

Onun sözlərinə görə, bu qanunun qəbul olunması onunla bağlıdır ki, valideynlərin çoxu vaxtında edilən peyvəndlərin vacibliyini başa düşmür və anlamır.

İmnadze qeyd edib: "Əgər valideynlər öz uşaqlarını qorumağı bacarmırlarsa, onda cəmiyyət onları qorumalıdır. Söhbət Milli İmmunizasiya Proqramında nəzərdə tutulan peyvəndlərdən gedir".

Cəmiyyətin peyvəndin vacibliyini bilməsi üçün dövlət qabaqlayıcı informasiya kampaniyası aparır. Lakin valideynlərin müəyyən hissəsi öz uşaqlarını peyvənd etdirməkdən imtina edirlər. Bəziləri peyvəndin sağlamlıq üçün zərərli, digərləri isə faydasız olmasını bildirirlər.

Milli İmmunizasiya Proqramı çərçivəsində uşaqlara 12 növ infeksiyaya qarşı peyvənd edilir.

Vaksinlərin köməyilə difterit, göyöskürək, hepatit B, qızılca, məxmərək, sətəlcəm, polimiyelit, ağız boşluğu infeksiyaları, tetanus və uşaqlıq yolu xərçənginin meydana çıxma riskini azaltmaq mümkündür.

2013-2014-cü illərdə Gürcüstanda məxmərək epidemiyası zamanı 11 min xəstəlik və üç ölüm halı qeydə alınmışdı. 2015-ci ildə 431 məxmərək hadisəsi və bir ölüm halı qeydə alınmışdı.

# QARDAŞIM ƏDƏBİYYAT
## *(litera)*

***"Dəli könül" ("Deli gönül"; ssenari müəllifi Rahşan Çiğdem İnan) filmində belə bir epizod var: məktəbin ədəbiyyat müəllimi istefa edir və onun yerinə... adam tapılmır; özü də o boyda İstanbulda!***

Bizim kənd kimi kiçik yaşayış məntəqəsindən (canım bala vətənim Dəllər!) yeddi nəfər ədəbiyyat müəllimi çıxıb və etiraf edim ki, təkcə onların hər birinə deyil, bütün ədəbiyyat müəllimlərinə, ümumiyyətlə, bütün müəllimlərə, hətta "gələcəyin memarı" adını ala bilməyənlərə də, eynən Mirzə Qələm demiş, hüsnxət-hüsnxət hüsn-təvəccöhüm var. Baxmayaraq ki, ədəbiyyatla (varlıq) ədəmiyyət (yoxluq) arasında əbədi mahiyyət və təzahür fərqi olduğutək, ədəbiyyatçılar arasında da bir zərurət və təzahür fərqi mümkündür. Bəlkə bunu heç hamının bilməyi də gərək deyil, amma demək borcumdur: hər bir Gürcüstanın, Türkmənistanın, Ərəbistanın, Hindistanın (elə adları -stan şəkilçisi ilə düzəlməyən yerlərin və oralarda yaşayanların da) həmişə – əlbəttə, ədəbiyyatla bağlı – bir ədəbistan tərəfi də mövcuddur ki, bu ədəbistan tərəfsiz bir mənasızlıq və olmazlıq baş alıb gedir. Varlığın sirlərini hərflərdə görənlərdən tutmuş müdriklik kvintesensiyası iddiaçılarınadək, hər kəsə ədəbiyyatın qanadları altında yer var: bəlkə də elə bu arazbarı üzdən ədəbiyyata təkcə ədəbiyyatçılar deyil, həm də fiziklər, kimyaçılar (və sairə və ilaxır) axın edirlər. Sadəcə olaraq bu qanadlar altında da qanadlı yaşamaq lazımdır! Çünki məhz qanadlılar biofizioloji həzzalmadan mənəvi həzzalma səviyyəsinə yüksələ bilirlər!

Sözümün toz-tozanaq, az-az da arazbarı təkrarına bir də qayıdıram: Füzulini, Hüqonu, Dostoyevskini tədris edənlərin bəziləri özlərini müəllif olaraq da sınayırlar. Görünür, həm dilin mətnlərdə əbədiyaşarlıq qazanması səbəbindən, həm də unudulmaz Şellinin (ing. Shelley) yazıçıları "dünyanın qanunvericiləri" – hamı tərəfindən qəbul edilməsə də – adlandırmağı və bu "titul"un onların xoşuna gəlməyi səbəbindən! Başqa sözlə, Əjdər Ol demiş:

Elə xoşum gəlir: çağırılanda
boylanam qələmdən, baxam kağızdan...

Məgər təhkiyə üsulu ilə, məzmunla, kompozisiyalarla, epitetlərlə, metaforalarla, təkrirlərlə, ritmlər və poetik "düsturlar"la yaşamaq, Kitabıstanda məskunlaşmaq, özünü sözlə ifadə etmək nadanların həyat tərzi ola bilərmi?! Aldığı nəfəslər əsasən ədəbi mətnlərdən, obrazlardan və obrazlarla yaşamaqdan ibarət olanlar ömürbillah çörək ağacından asılmadılar. Özlərindən əzabkeş obrazı da yaratmadılar ki, bəs deməzsənmi, hər gün "Sibir"də (hətta Sibirdən də uzaqlarda) sürgündədirlər... Çünki ədəbiyyatın bəxş elədiyi epik-lirik həyat onların bəsidir, həşkəli həyət, ziyadə ziyafət isə bütün dövrlərdə imperatorlardan "çörək və tamaşalar" tələb edənlərin (onlar özlərini hələ hansı ali zövqlərdən məhrum etdiklərinin fərqində deyillər) xislətindədir. Qaldı bir zamanlar əl-əl gəzən kitabların indi kitab rəflərində "kiflənməyi"nə, bu artıq – yenə də Mirzə Qələm demiş – Sınıq körpü deyil, Sirat körpü məsələsidir!

...Gənc jurnalist (bəlkə gənc yazıçı?) Aysu Kərimovanın "Kulis.az"da "Vaqif Bayatlıdan sizə xəbər gətirmişəm" adlı kiçicik təəssürat yazısını oxuyuram. Ədəbiyyatımızın "arıq və çəlimsiz bir göyüzü" (K.Aysu) olan Vaqif bəy mənim ədəbi aləmimdə həm də "mənəvi" sözündəki "mən" misallı, şəxsi mənafe və mənfəət hisslərindən çox-çox yüksəklərdədir!

Sınıq körpünün bəri üzündə, Əyriqarın ətəklərinə yaxın az qala qosqoca dağlar qədər qoca yaylaqçının mənə dediklərini günlərin bir günü Xəzər sahilində "kamançanın ağlada bilmədiyi zalım adam"a – Vaqif bəyə də çatdırmışdım: yaylaqçı dedi ki, oğul, öysüz (evsiz) ol, amma məbada göysüz olma! Bəlkə də bu göylü olmaq səbəbindəndir ki, Anna Kareninanı, Pedro Paramonu, Sərdar Əsədi, qanlı qərənfili, pəjmürdə peyğəmbərçiçəyini Mirzə Mikrobdan, Dədə Mirzə Dılğırdan, Mirzə Levon Məlik Dəmirçiyandan, Mirzə Simon Simonişvilidən dünya boyda yaxın və doğma bilirik.

Məşəqqətlərlə dolu 90-cı illərin əvvəllərində Süsən-Sünbüldə bir nəfər məşhur ehtiyat hissələri taciri (siz tərəflərdə alverçi) daha çox İtaliya tərəflərdə məşhur olan "Kolizey" kolbasasından yeyə-yeyə Mirzə Qələmə və mənə – ikimizin də "Xəzər" və "Ulduz" jurnallarında yazılarımız gedirdi – ikrahla baxa-baxa dedi:

– Gedin indi ədəbiyyat yeyin!..

Amma axı ədəbiyyat bizim qardaşımızdır, qardaşının ətini yeməyə kim razı olar axı?..

Burasını da deyim ki, bir vaxtlar hökmdarların yeməyini dadmaqla onun zərərsiz olduğunu müəyyənləşdirən adamlar – çaşnigirlər – olurmuş. Arada-sırada mənə belə gəlir ki, ədəbiyyatda yaşayanlar dağı, daşı, yeri, göyü zəhərsiz-zərərsiz eləyənlərdir.

Doğrudur, ədəbiyyat villa, bahalı maşın, digər dərbədər dəbdəbələr vermədi (Nobel, Qonkur, Buker bir ayrı!), amma bu boyda ədəbi-mədəni, epik-lirik dünya verdi: literalarla (hərf), idilliyalarla, poetizmlərlə, hüzn və həsrətlə dopdolu dünya!

Sizcə, unudulmaz Balzak özünü nahaqdanmı fransız həyatının katibi (mirzəsi) hesab edirdi?.. Yeri gəlmişkən, biz tərəflərdə də bu möhtəşəm katiblik davası döyənlər günbəgün artır. Belə bapbalaca iddiadan qardaşım ədəbiyyata çətin ki bir ziyan dəyə!..

P.S.

Bala vətənim Dəllərdən bu qədər uzaqlarda, Süsən-Sünbül yolunda unudulmaz Sabir Əhmədovun üsulu barədə özüm üçün zümzümə eləyirəm. Birdən Əyriqar tərəflərdən nəhs səs gəlir; qara qarğışdır:

– Ədəbiyyat adlı qardaşın ölsün, ay İbrahimxəlil! Ustad qardaşın!

Qarğışın davamını eşidə bilmirəm.

***...qardaşımın ölümsüz olduğunu haralardan bilsin? yazıq!..***

İBRAHİMXƏLİL

## PARLAMENT KOMİTƏSİNDƏ AZƏRBAYCANDİLLİ MƏKTƏBLƏRİN MƏSƏLƏSİ QALDIRILACAQ



Gürcüstan parlamentinin deputatı Ruslan Hacıyev Marneuli rayonunun azərbaycandilli məktəblərinin müəllim heyəti ilə görüş keçirib.

APA-nın Gürcüstan bürosunun məlumatına görə, Gürcüstanın Azərbaycanlı Müəllimlər İttifaqının təşəbbüsü ilə keçirilən görüşdə məktəbləri narahat edən məsələlər müzakirə olunub.

Görüşdə hazırkı vəziyyət, dərsliklərdə yol verilmiş qüsurlar, Azərbaycan dili və ədəbiyyatının tədrisi səviyyəsinin yüksəldilməsi məsələri də müzakirə edilib.

Ruslan Hacıyevin sözlərinə görə, görüşdə müəllimlərin problemlərilə bağlı olan təkliflər və tövsiyyələr dinlənilib. Deputat Azərbaycan dilinin tədrisi ilə əlaqədar məktəbləri narahat edən məsələlərin Gürcüstan parlamentinin təhsil, elm və mədəniyyət komitəsinin, habelə Təhsil və Elm Nazirliyinin diqqətinə çatdırılacağını bildirib.

Qeyd edək ki, görüşdə 50-yə yaxın məktəbin direktorları və müəllimləri iştirak ediblər.

## TƏHSİL NAZİRLİYİ MƏKTƏBLƏRDƏ ALMA PAYLAYACAQ

Gürcüstanın Təhsil və Elm Nazirliyi məktəblərdə alma paylanması kampaniyasına başlayacaq. Avqustun 11-də Gürcüstanın təhsil və elm naziri Aleksandr Cecelava mətbuat konfransında bəyan edib ki, alma paylanması kampaniyası payızda Tbilisinin 1000 nəfərdən çox şagird oxuyan məktəblərində başlayacaq.

Kampaniya çərçivəsində şagirdlərə həftədə bir dəfə alma paylanacaq.

Aleksandr Cecelava bildirib: "Bu, mürəkkəb və bahalı layihədir. Digər tərəfdən, mürəkkəblik və bahalılıq bizə əngəl deyil. Bu layihənin məqsədi uşaqların tənəffüslərdə alma yemələrindən ibarətdir. Tbilisidə belə şagirdlər təxminən 40 mindən 60 min nəfərədəkdir. Biz məktəbə şagirdlərin özlərilə alma gətirmələri üçün valideynlərin onlara alma vermələri kampaniyasına da başlamaq istəyirik".

## MƏKTƏBLƏRDƏ PULSUZ FUTBOL DƏRSLƏRİ KEÇİRİLƏCƏK



Cari ilin sentyabrında 1000-dən çox məktəbdə birinci və ikinci sinif şagirdlərinə pulsuz futbol dərsləri keçiriləcək. Bu barədə Gürcüstan Futbol Federasiyasının prezidenti Levan Kobiaşvili məlumat verib.

Kobiaşvilinin məlumatına görə, idman müəllimləri bu istiqamətdə işləmək üçün artıq yenidən hazırlanıblar. Bununla belə, onun sözlərinə görə, 2018-ci ildən uşaq futbolunun inkişaf proqramı da fəaliyyət göstərəcək.

Federasiya rəhbəri bəyan edib: "Sentyabrda 1000-dən çox ictimai məktəbin şagirdləri futbolu pulsuz öyrənə biləcəklər. Bunun üçün idman müəllimlərinin yenidən hazırlanması həyata keçirilib. İlin sonlarına doğru böyük yaşlarda uşaq futbolunu həvəsləndirmək üçün daha böyük bir layihə də planlaşdırılır. Bu layihə 2018-ci ildən fəaliyyət göstərməyə başlayacaq".

## TƏHSİL NAZİRLİYİ ABITURİYENTLƏRİ AVTORİZASİYA OLUNMUŞ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİ SEÇMƏYƏ ÇAĞIRIR

Gürcüstanın Təhsil və Elm Nazirliyi abituriyentləri təhsilə başlamazdan öncə seçdikləri ali təhsil müəssisəsinin avtorizasiyadan keçdiyinə əmin olmağa çağırır. Bu barədə idarənin rəsmi saytında bildirilir. Bəyanatda son vaxtlar internetdə abituriyentlərə imtahansız müxtəlif ali təhsil müəssisələrinə daxil olmaq və birinci semestrdən sonra arzuladıqları istənilən universitetə keça biləcəklərini təklif edən elanlar meydana çıxdığı qeyd edilir.

Bəyanatda deyilir: "Bu cür təkliflər olduqca risklidir, bir qayda olaraq belə müəssisələr təhsil fəaliyyətinin həyata keçirilməsi üçün gərək olan prosedurdan – avtorizasiyadan keçməyiblər".

Abituriyentlərin belə təkliflərlə üzləşməsi birinci dəfə deyi. Keçən il Təhsil Nazirliyi DİN-ə Gürcüstanda Ukrayna universitetlərinin filiallarının fəaliyyətini araşdırmaq xahişilə müraciət etmişdi. Bəlli olmuşdur ki, Odessa Beynəlxalq Humanitar Universitetinin, Kiyev Beynəlxalq Universitetinin və Kiyev Beynəlxalq Universitetinin Hazırlıq Mərkəzinin filialları avtorizasiyadan keçmədiklərinə görə Gürcüstan təhsil müəssisələrinin reyestrində qeydiyyata düşmədikləri bəlli olmuşdur.

Təhsil Nazirliyində bu cür təhsil müəssisələrinin verdikləri diplomların Gürcüstanda tanınmayacağı barədə dəfələrlə bəyanat səsləndirilib

# MİRVARİNİ QAÇIRANLAR

## Akaki Qelovani

*(Əvvəli qəzetimizin builki 13-cü və 14-cü saylarında)*

***Bodenştedtdə uyğunsuz, ənənəvi, düzgün olmayan və səthi yerlər var. Bu, gürcü ədəbiyyatı, yaşayışı, qadınların gözəlliyi və təhsili məsələlərinə dair və s. mühakimələrdə daha artıq görünür. Doğrudur, özünü ağıllı aparır və dilini qaydasınca bilmədiyi xalqın ədəbiyyatı barədə məzəmmətlər söyləməkdən çəkinir. Lakin dediklərindən də bizim ədəbiyyatı necə səthi bildiyi görünür, o, müasiri, Naxçıvana və Gəncəyə getməmişdən öncə həyatının son illəri məhz elə Bodenştedtin Tiflisdə olduğu dövrə təsadüf edən Nikoloz Barataşvilini və Aleksandr Çavçavadzeni xatırlamır. Onu bəşəri ideallara mübtəla olan Avropa üsullu ədəbiyyat da maraqlandırmır. Ona Qərbdə basırmaq üçün qrotesk, Hafiz, Şərq ətri, min bir gecə mozaikası, fars poeziyasının gülləri lazımdır və tapdı da – Mirzə Şəfinin nəğmələri şəklində.***

* * *

“Ey gəncəli müdrik Mirzə Şəfi! Yenə xəyalımda surətin canlanır. Sənin sözlərin həqiqət oldu, bizə vəd etdiklərinin hamısı həyata keçdi. Sənin nəğmələrin bizim qız-gəlinlərimizin ürəklərində özünə yuva tapdı. Sənin adın Qərb dünyasında şərəflə səsləndi”.

Bodenştedt 1850-ci ildə “Min bir gün”ün ilk nəşrində belə yazırdı. 0n beş il keçdi və Mirzə Şəfinin nəğmələrinin uğurlarından başı gicəllənən bu adam növbəti nəşrində bu sözləri çıxartdı. Füzulinin şeirini isə ( “Molla, yaxşıdır şərab”) Mirzə Şəfinin adına yazdı və bildirdi ki, budur onun yeganə şeiri, onu da alman dilinə dəqiq tərcümə etmişdir. Aydındır ki, bununla yalnız öz xidmətini alçaldıb, etibarı itirirdi.

Hər halda kim idi Mirzə Şəfi? “Min bir gün”ün bu əsas qəhrəmanı elə sağlığında nağıl dumanına bürünmüş, bir çox mühakimələrin mövzusuna çevrilmiş və sonra da və hər halda nə türkdür, nə farsdır. 1796-cı və ya 1805-ci ildə Gəncədə doğulmuş (Azərbaycan mənbələrində doğum tarixi 1794-cü il göstərilir – M.M.) və elə oradaca 1852-ci ildə, təxminən 50 yaşında dünyasını dəyişmiş (Halbuki, Berje 60 yaşında dünyasını dəyişdiyini güman edir) böyük Azərbaycan şairi, müdrik, müəllim, kalliqraf, maarifçi, real şəxsiyyət – Mirzə Şəfi Vazehdir (Mirzə Şəfi Tiflisdə dünyasını dəyişmiş və indiki Nəbatat bağında dəfn olunmuşdur – M.M.).

Mirzə Şəfi memar oğludur və özü də poetik söz memarıdır. Gəncliyindən fanatiklərə gülür, keçmişin istər qərbli, istərsə də şərqli şair-mütəfəkkirləri kimi azadlığı tərənnüm edir və gənc Mirzə Fətəli Axundova xeyirxah təsir göstərir. Ona deyir: “Mirzə Fətəli, elmləri təhsil almaqda məqsədin nədir? Sən də riyakar və şarlatanmı olmaq istəyirsən?” Axundov həmin vaxt niyyətindən əl çəkir və şairliyin tikanlı yolunu seçir. Böyük həmvətəni, gəncəli müdrik onu elə qabaqcadan tanıyıb: ”Fətəli qəribə gənc idi, ondan nəsə böyük şeylər gözləyirdilər”.

1840-cı il sentyabrın 17-də Tiflis gimnaziyasında müəllimlik dərəcəsi verilməsi üçün Mirzə Şəfini tatar dili üzrə sınaqdan keçirirlər. Bir çox manеələri aşmalı oldu. General Qolovinin növbəti il təsdiqi gələnə kimi, müəllim olaraq icazə verilənə kimi, gimnaziyaya deyl, qəza məktəbinə buraxdılar, burada da altı il qaldı. Bu illər, Tiflisdə fəaliyyət göstərdiyi vaxtlar “Divani-hikmət” yaradır, nəğmə oxuyur, yazır, sevir, oxucunu azadlığa çağırır, müstəbidlərə gülür, həyat sevgisi ilə yanan nəğmələr məcmuəsini – qiymətli əlyazmasını hədiyyə olaraq öz



gənc şagirdi və dostu, tərcüməsinə Lev Tolstoyun heyran olduğu (1880-ci ildə) Bodenştedtə verir.

Mirzə Şəfinin müasirlərinə təsir qüvvəsi böyük idi və illah da ki, ona qarşı onun şeirlərinə məftun olan camaatın, ilk növbədə isə elə öz həmvətənlərinin son dövrlərə kimi göstərdiyi diqqətsizlik qəribədir. Onun tanış və tanış olmayan şagirdləri, ilk növbədə əcnəbilər – Fridrix Bodenştedt, Vilhelm Harniş, Fridrix Rozen və b. bu güclü şairin və müdrikin, söhbətcilin qarşısında baş əyirlər. Bizi bu günə qədər onun müdrilkiyi, həyat eşqi ilə isinən müdrik “sağlam realizmi” məftun edir. Mirzə Şəfi dünya şöhrətinə layiqdir və yenə də artıq belə hörmətə malikdir. Doğrudur, oriyentalist Adolf Berjeyə tiflisli molla Əhməd onu da deyib ki, Mirzə Şəfi heç bir zaman şair olmayıb və öz ölkəsində onu şair kimi tanımırdılar, lakin şairin bütün həyatı boyu güldüyü, tənə elədiyi hiyləgər mollalara inanmağımıza nə əsasımız vardır?

1870-ci ildə elə həmin Berje aləmə bəyan elədi: “ Bu gözəl nəğmələrin müəllifi Mirzə Şəfi deyil, Bodenştedtdir”. Bir az bundan öncə Bodenştedtin özü öz fırıldağının (daha doğrusu, fırıldağa başladı) üzərindən pərdəni götürdü: “ Mirzə Şəfinin bu nəğmələri tərcümə deyil və onlar özlərinin mövcudluğuna görə yalnız mənə minnətdar olmalıdırlar”. Bu, ehtiyatlı və ikimənalı bəyanatdır: Şair şeirləri aşkar mənimsəməyə cəsarət etmir və deşiyi elə açır ki, çıxış yolu olsun: Halbuki, yalnız tərcüməçi olsam da, bununla onları unudulmaqdan xilas etdim və müəllifin adını aləmə yaydım. Bu isə doğrudan da onun xidmətidir. 17 il keçir və özünün müəllifliyini daha qətiyyətlə təstiqləyir. Berjenin dediyinə görə, “Bir qədəh şərabı və tənbəki kisəsini hər şeydən üstün tutan”Mirzə Şəfiyə qarşı istehza avazını daha da gücləndirir, gəncəli müdrikin rahatlığı və sadəliyi üçün “Şaffi”adını isə zarafatla götürdüyünü qeyd edir (Shaf – qoyundur: düzgün yazılışı Safi ola bilərdi). ( Mikayıl Rəfilinin “Mirzə Şəfi dünya ədədbiyyatında” adlı kitabında adın imitasiyası düzgün göstərilməyib: “İki i hərfini ona görə yazıb ki, Schaff alman sözü ilə səsləşə bilsin”. Həqiqətən isə əksinədir. Schaff-a iki i hərfi lazım deyil. İmitasiya özünü daha çox onda əks etdirir ki, Bodenştedt Safi-ni Schaff-la əvəz edib – A.Q.)

Lakin belə hallar zarafatla ötüşə bilməz. Halbuki, Diogen kimi sadəlik edərək ibadətgaha belə yaxın getməyən, mollalara gülən şairi qoyun kimi sırımaq çətin olardı. Adın poetik oyununda gizlənən onun poeziyasının sosial səslənişi alın yazısı kimi şeirlərinin alman tərcüməsində qorunub saxlanıb.

Sensasiya baş verdi, bu da hamını heyrətləndirdi. Budur, bu sensasiyanın digər cizgiləri.

***1851-ci ildə (1850-ci ildə deyil) “Mirzə Şəfi nəğmələri”nin ilk nəşrindən 42 il sonra, 1893-cü ildə bu kitab artıq 145 dəfə nəşr edilib. Güman ki, bu, dünyada özünəməxsus, görünməmiş uğur idi. Heç bir şairə bunu görmək nəsib olmayıb. Bütün Almaniyada Daumer tərəfindən əla tərcümə olunan Hafiz dillərdə gəzirdi, lakin nə Hafizin, nə də Heynenin belə bir uğuru olmayıb. Heynenin “Nəğmələr kitabı” təkrar olaraq yalnız on il gecikərək nəşr olunub. Şairin sağlığında isə ümumiyyətlə, yalnız 13 dəfə nəşr olunub. Dərinliyinə və zərifliyinə görə onun da hamı üçün əlçatan olmasına baxmayaraq, əhəmiyyətini şagirdi də bilir. Sanki bütün əsr boyu adi olmayan nailiyyət davam edirdi. 1924-cü ildə “Mirzə Şəfi nəğmələri”nin yüz yetmişnci nəşri işıq üzü görüb. Bütün mədəni millətlərin seçilmiş şairləri Heyne və Hafiz lirikası ilə rəqabət aparan, təkcə dərdsiz-qəmsiz həyatın, şərabın və qadının vəsfi ilə deyil, eləcə də dərinliyi və ciddiliyi ilə də seçilən bu kitabın tərcümə olunmasına əl qoydular. 1887-ci ildə kitab artıq italyan, fransız, ingilis, çex, holland, isveç, ispan, portuqal, rus, macar, danimarka, yunan, bütün slavyan və elə qədim yəhudi dilinə də tərcümə edilmişdi. Sensasiyalı uğur kuryoz bəyanata səbəb oldu: “Mirzə Şəfinin nəğmələri, belə oxuyun, tatar dilinə də tərcümə edilmişdir”. Artıq nə çarə!“Tatar” şair öz ölkəsində itdi, onu almanca tanıyırlar və bəlkə kimsə alman şairin tərcümə etdiyi kimi elə tatar dilinə tərcümə etdi. (Xaricdə bu günə kimi “Mirzə Şəfi nəğmələri”ni “Şərq şairləri manerasında” yazılmış kitab, Bodenştedti isə bu nəğmələrin “müəllifi” hesab edirlər – A.Q.)***

Gürcücədən tərcümə
Mirzə Məmmədoğlunundur

## MACARISTANDA MÖHTƏŞƏM TURAN QURULTAYI KEÇİRİLİB



Macarıstanın Kiçik Kumaniya bölgəsində yerləşən Buğac şəhəri yaxınlığındakı “Kişkunşaq” milli parkında 1700 il əvvəl Atillanın öndərliyi ilə ölkəyə ilk türk tayfalarının gəlişi münasibətilə “Turan qurultayı”, yaxud “Əcdadlar günü” adlı tədbir keçirilib.

Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin dəstəyi ilə Macar Turan Fondu tərəfindən təşkil edilən mərasimə on minlərlə şəxs qatılıb. Avropa Hun İmperiyası hökmdarı Atillanın anıldığı tədbirdə türk tarixinə dair fotoşəkillər nümayiş etdirilib, köçəri tayfaların adətənənələri, həyat tərzi və döyüş oyunlarına dair səhnələr canlandırılıb, ox yarışları və konsert təşkil edilib. Gecələmək istəyən tədbir iştirakçıları üçün çoxlu sayda ənənəvi çadırlar qurulub.

Mərasimə Macarıstan parlamentinin birinci vitse-spikeri, yazıçı, tarixçi və etnoqraf Sandor Layoş, o cümlədən Azərbaycanın Macarıstandakı səfiri Vilayət Quliyev, Türkiyə səfirliyinin rəsmiləri, Qazaxıstanın Macarıstandakı səfiri də qatılıb.

## GÜRCÜSTANDA 2650 AZƏRBAYCAN VƏTƏNDAŞI ALİ TƏHSİL ALIR

Gürcüstan Milli Statistika Bürosunun məlumatına görə, hal-hazırda Gürcüstanda 2650 Azərbaycan vətəndaşı ali təhsil alır.

Onlardan 557 nəfəri dövlət, 2093-ü isə özəl ali təhsil müəssisələrində təhsil alırlar.

2016-2017-ci tədris ilində Gürcüstanda ali təhsil alan əcnəbi tələbələrin ümumi sayı isə 8012 nəfər olub. Gürcüstanda ali təhsil alan tələbələrin sayına görə 2650 nəfərlə Azərbaycan birinci yeri tutur.

Əcnəbi tələbələr Gürcüstanda əsasən sosial elmlər, biznes, hüquq və tibb sahəsində təhsil almağa üstünlük verirlər.

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

15 avqust 2017-cı il
№015 (53)

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / “იენი იოლი” საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## NATİONAL GEOGRAPHİC GÜRCÜSTAN HAQQINDA FİLM ÇƏKİB



National Geographic Gürcüstanın baş rol aldığı yeni qeyri-adi videoçarx nümayiş etdirib. Bu barədə çəkiliş qrupunun üzvlərindən biri olan Andrey Yefimov danışıb: “Səyahətimiz zamanı biz demək olar bütün Gürcüstanı gəzsək də, videoçarxa yalnız Tbilisi və onun ətraflarından, habelə üzümçülük regionu Kaxetidən kadrlar daxildir. Bu ona görə belədir ki, çəkiliş zamanı bizim dron naqilə ilişərək Borjomi yaxınlığındakı dağlarda qəzaya uğradı, stress nəticəsində biz kameramızı yol kənarındakı bir kafedə unutduq və onun ardınca yalnız yola düşməzdən bir qədər əvvəl qayıda bildik. Bu kadrlar gördüklərimizin yalnız cüzi bir hissəsidir. Dağlar, göllər, buzlaqlar, dəniz, aşırımlar, adamlar, dil, mədəniyyət, şərab, mətbəx, dulus məmulatı və s. saymaqla qurtaran deyil.

Video üçün biz Boris Pasternakın Gürcüstan haqqında “Dalğa”şeirini leitmotiv seçmişik. Şeirin ingilis dilinə dəqiq və uğurlu tərcüməsini tapmışıq.

## SOSİAL ŞƏBƏKƏ İSTİFADƏÇƏLİRİNİN SAYI 3 MİLYARDI KEÇDİ

The Next Web nəşrində dərc edilmiş “We Are Social” və “Hootsuite” platformalarının son hesabatına əsasən, sosial şəbəkələrdə aktiv istifadəçilərin sayı 3 milyardı ötüb.

Hər gün sosial şəbəkələrdə aktiv istifadəçilərin sayı 1 milyon artır.

Hazırda dünyada ən böyük sosial şəbəkə “Facebook”dur. Bu sosial şəbəkənin auditoriyası 2 milyard aktiv istifadəçidən ibarətdir. Onların 87%-i mobil qurğulardan istifadə edir, 59%-i isə hər gün “Facebook”a daxil olur.

Aktiv istifadəçilərinin sayı 1,5 milyard təşkil edən “YouTube” bu göstərici üzrə ikinci yerdə durur. Aktiv istifadəçilərinin sayına görə növbəti yerləri “WhatsApp”, “Facebook Messenger” və “WeChat” messencerləri tuturlar.




“Telegram” messencerinin auditoriyası 100 milyon aktiv istifadəçidən ibarətdir və bu göstərici üzrə “VKontakte” sosial şəbəkəsini geridə qoyur. Hər gün sözügedən messencerdə 600 min insan qeydiyyatdan keçir.

## FRANSA BENZİNLƏ İŞLƏYƏN MAŞINLARIN SATIŞINI QADAĞAN ETMƏYİ DÜŞÜNÜR

Fransa 2040-cı ildə benzin və dizel yanacağı ilə işləyən avtomobillərin satışına bütövlüklə qadağa qoyacaq.

Xarici mətbuatın məlumatına görə, bunu Fransanın ekologiya naziri Nicolas Hulot deyib. N.Hulot elektrik istehlakında kömür istifadəsini tamamən dayandıracaqlarını və enerji istehsalında sıxıntı olmaması üçün təxminən 4 milyard avro investisiya xərcləyəcəklərini vurğulayıb.

Öz enerji ehtiyaclarını istehsal etməyi planlaşdıran hökumət 2022-ci ilə qədər ölkə ərazisində neft və qazın axtarışına son qoymaq niyyətindədir.

## ABŞ-DA UŞAQLARI ÇUBUQLA DÖYMƏK QANUNLƏŞDŞRİLDİ

ABŞ-ın Texas ştatında özünü apara bilməyən azyaşlı uşaqların çubuqla döyülməsinə icazə verilib.

Yeni qərar ştatın bütün məktəblərinə göndərilib.

Döyməzdən əvvəl müəllim şikayət məktubu yazmalı və ya rəhbərliyə bununla bağlı məlumat verməlidir.

Qeyd edək ki, ABŞ-ın 28 ştatında bu cəza növü qadağan olunub.



## GÜRCÜDİLLİ OXUCULAR «HEYDƏRBABAYA SALAM» PEMASINI OXUMAQ İMKAHI QAZANIBLAR




İ.Cavaxişvili adına Tbilisi Dövlət Universitetində Gürcüstan Azərbaycanlıları Ağsaqqallar Şurasının təşkilatçılığı və dəstəyi ilə XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Məhəmmədhüseyn Şəhriyarın “Heydərbabaya salam” poemasının gürcü dilində təqdimat mərasimi olub.

Aparıcı Dursun Ayvazov şair M.Şəhriyarın həyat və yaradıcılığı barədə məlumat verib.

Universitetin rektoru Georgi Şervaşidze, GAAŞ-ın sədri İsak Novruzov, müavini Mayak Nemətov, İran İslam Respublikasının Gürcüstandakı səfirliyinin mədəniyyət şöbəsinin müdiri Kamran Fərdi, Tbilisi şəhər bələdiyyəsinin müşaviri Kaxa Tsetsxiladze, Təbriz Universitetinin direktoru Pur Muhəmmədi, Təbriz Universitetinin Qafqaz Tədqiqat Mərkəzinin direktoru Əhməd Fərşbafian, TDU-nun professoru Namadi Bartaia, Azərbaycanın Gürcüstandakı səfirinin müavini Fəxri Hacıyev, Gürcüstan Müsəlmanları İdarəsinin şeyxi hacı Ramin İgidov, poemanı gürcü dilinə çevirən şair-tərcüməçi Oqtay Kazımov M.Şəhriyarın həyat və yaradıcılığı haqqında fikirlər səsləndiriblər. Azərbaycanlı və gürcü tələbələr poemadan Azərbaycan, gürcü və fars dillərində parçalar söyləyiblər.

Sonda “Heydərbabaya salam”dan bir parça M.Şəhriyarın öz səsilə səsləndirilib. İranın Gürcüstan səfirliyinin nümayəndəsi “Heydərbabaya salam”ı gürcü dilinə çevirən tərcüməçi Oqtay Kazımova hədiyyə təqdim edib.

Tədbirdə Azərbaycan, Gürcüstan və İran ictimaiyyətinin nümayəndələri, ədəbiyyatşünaslar, ictimai birliklərin və ziyalıların nümayəndələri iştirak ediblər.

## ŞƏHƏRLƏRDƏ HAVANIN ÇİRKLƏNMƏ SƏVİYYƏSİ MÜƏYYƏNLƏŞDİRİLDİ



Gürcüstanın Milli Ətraf Muhit Agentliyi ölkədə d havanın çirklənmə səviyyəsini qiymətləndirib.

Havada azot dioksid, ozon, kükürd və benzolun toplanmasını müəyyənləşdirmək üçün mütəxəssislər 20 şəhərdə 134 qurğu quraşdırıblar.

Bütün nöqtələrdə havada ozon, kükürd və benzolun toplanması minimal səviyyədə olub. Gürcüstanda havanın ən geniş yayılmış çirkləndiricisi azot dioksiddir.

Azot dioksidin ən yüksək göstəricisi Tbilisidə qeydə alınıb.

Paytaxtın 14 yerində, habelə Kutaisi, Batumi, Telavi, Zestafoni, Xaşuri, Samtredia və Qoridə azot dioksidin orta göstəricisi qeydə alınıb.

Analizlər Böyük Britaniyanın akkreditasiya olunmuş laboratoriyasında həyata keçirilib, alınmış nəticələr isə Avropa İttifaqının havanın keyfiyyətini müəyyənləşdirən sisteminə uyğun aparılıb.

## BAŞSAĞLIĞI

Qardabani bələdiyyəsi Kosalı ictimai məktəbinin pedaqoji kollektivinin üzvləri iş yoldaşları Vidadi Əliyevə anası

**Xədicə Vəli qızının**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

Allah rəhmət eləsin!

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı”

*Redaktor:*
Afiq Muxtaroğlu
*Yayım Direktoru:*
Hacı Bəkiroğlu

*ÜNVAN:* Qardabani şəh. Kolxoz küç, 4
*TEL:* (+995) 595 92 25 70
599 54 12 92
*EMAİL:* yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.